# İŞIQ

İctimai-siyasi qəzet

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №7 (7478) | 15 may 2020-ci il | Cümə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


Heydər Əliyev - 97

## Xalqımızın qürur və iftixar mənbəyi



**Azərbaycan xalqının milli mənlik şüurunun oyanmasında, müstəqil dövlətçilik təfəkkürünün formalaşmasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri vardır. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinin hər bir məqamı Azərbaycan xalqının qürur və iftixar mənbəyidir. Ümummilli lider Heydər Əliyev respublikaya rəhbərliyi dövründə milli maraqlarımızın qorunmasına, milli şüurun, müstəqil dövlətçilik təfəkkürünün formalaşıb möhkəmlənməsinə, müstəqilliyimizin iqtisadi əsaslarının yaradılmasına, ideoloji prinsiplərin, milli kadrların hazırlanmasına xüsusi önəm vermişdir. İstedadlı gənclərin keçmiş SSRİ-nin nüfüzlü ali məktəblərinə oxumağa göndərilməsini təşkil edirdi. Təhsilini başa vurub respublikamıza qayıdan gənc mütəxəssislərə lazimi şərait yaradılırdı. Bir sözlə, ölkədə bilik yeganə meyara, “Qoy ədalət zəfər çalsın”şüarı həyatın reallığına çevrilmişdir.**

Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə milli mənəvi dəyərlərimizə, adət-ənənələrimizə diqqət daha da artırıldı. Şifahi xalq ədəbiyyatı nümunələrinin, klassiklərin əsərlərinin nəşr edilməsi ilə ölkədə milli ruhun oyanmasına çalışılırdı. Azərbaycanda yeni ali və orta ixtisas məktəbləri, orta məktəb binaları, mədəniyyət ocaqları inşa edilirdi. Təhsilin, səhiyyənin maddi texniki bazası, kadr potensialı milli kadrlarla gücləndirildi. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə iqtisadiyyatın bütün sahələri, o cümlədən kənd təsərrüfatı sürətlə inkişaf edir, əhalinin sosial problemləri ardıcıl həll olunurdu. Bu proses, Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olan dövrdə də davam etdi. Onun diqqət və qayğısı sayəsində ölkəmizin sosial-iqtisadi inkişafında böyük nailiyyətlər əldə olundu.

Xalqın milli azadlıq, müstəqillik uğrunda mübarizə əzmini qırmaq üçün Sovet ordusu 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıya yeridildi. Bakıda tarixdə anoloqu olmayan kütləvi qırğınlar törədildi. Bakıda fövqəladə vəziyyət elan olundu. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1990-cı ilin yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək 20 yanvar faciəsini törədən və ona rəvac verənlərin əməllərini qətiyyətlə pisləyib günahkarları ittiham etdi. Törədilən təcavüzə, faciəyə siyasi qiymət verdi. Onu dünya ictimaiyyətinə çatdırdı. Vəziyyətdən çıxış yollarını göstərdi. Ulu öndərin bu çıxışı Azərbaycanda milli şüurun, ictimai fikrin inkişafında yeni mərhələnin əsasını qoydu. Xalqın gözünü açdı. Azərbaycanı müstəqil dövlətçilik yoluna yönəltdi. Ümummilli lider Heydər Əliyev Naxçıvanda milli dövlətçiliyimizlə bağlı taleyüklü qərarlar qəbul etdi. 1990-cı ilin noyabrın 17-də ilk dəfə Naxçıvanda üç rəngli bayrağımız qaldırıldı. 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi.

Xalqın təkidi, tələbi ilə müdrik siyasətçi, böyük dövlət xadimi Ümummilli liderimiz Heydər Əliyev Bakıya dəvət edildi. 1993-cü ilin iyulun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Milli Məclisinin sədri seçildi. O, ölkədə ictimai-siyasi sabitliyi təmin etdi. Atəşkəsə nail oldu. Dağıdılmış iqtisadiyyatı, beynəlxalq əlaqələri yenidən qurdu. Silsilə dövlət çevrilişinə göstərilən cəhdlərin qarşısını aldı. Qeyri-qanuni silahlı dəstələri, hərbi birləşmələri ləğv etdi. Güclü milli ordu yaratdı. Ölkədə iqtisadi, siyasi islahatlar həyata keçirdi. Xarici kapitalın neft sənayesinə yönəldilməsini təmin etdi. “Əsrin müqaviləsi” neft kontraktlarının imzalanmasına nail oldu. Azərbaycan neftinin dünya bazarına çıxarılmasını təmin etdi. Qarabağ problemini sülh, danışıqlar yolu ilə həll etmək üçün fəal daxili və xarici siyasət yeritməyə başladı. Azərbaycanı müstəqil dövlət kimi bütün dünyaya tanıtdı. Heydər Əliyev diplomatiyası Azərbaycanın düşdüyü informasiya blokadasını dağıtdı. Xalqın haqq sözünü, mövqeyini bütün dünyaya bəyan etdi. Azərbaycan dünyanın ən möhtəbər beynəlxalq təşkilatlarına üzv qəbul olundu.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycanda milli həmrəyliyə, milli birliyə nail olur. Birinci vitse-Prezidentimiz, Heydər Əliyev Fondunun Prezidenti hörmətli Mehriban xanım Əliyevanın humanizmə, mərhəmət və nəcibliyə söykənən hərtərəfli fəaliyyəti, ölkəmizdə sosial-iqtisadi və mədəni inkişafın təmin olunmasına, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemlərinin həllinə, elmin, təhsilin,-səhiyyənin və idmanın inkişafına, milli-mənəvi dəyərlərimizin təbliğinə və zənginləşməsinə hesablanmış mühim layihələri müvəffəqiyyətlə həyata keçirməsi, ölkəmizin tolerant, multikultural həyat tərzini dünya ictimaiyyətinə çatdırması Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu daha da gücləndirir, Heydər Əliyev siyasi kursuna yeni-yeni töhfələr verir.

Ümummilli lider Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan bu gün onun siyasi varisi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmlənir və inkişaf edir. Regionun söz sahibinə, güclü dövlətinə çevrilir.

Bu günlərdə ulu öndərin 97-ci ildönümü tamam oldu. Xüsusi karantin rejiminə əməl edilməklə şəhərimizdə bu münasibətlə müxtəlif tədbirlər keçirildi.



## Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov tərəfindən növbəti video-müşavirə

**Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması və həmin rejimlə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 01 may 2020-ci il tarixli 163 nömrəli Qərarından irəli gələn vəzifələrlə əlaqədar Şirvan şəhər İcra Hakimiyyətində növbəti video-konfrans şəklində müşavirə keçirilib.**




Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun rəhbərliyi ilə keçirilən müşavirəyə Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavinləri, şəhərin səhiyyə, təhsil və mədəniyyət müəssisələrinin rəhbərləri, şəhər Bələdiyyəsinin sədri, şəhər Məşğulluq Mərkəzinin direktoru, Statistika idarəsinin rəisi, xidmət təşkilatlarının rəhbərləri, şəhər və qəsəbə icra nümayəndələri qatılıb. Video-müşavirədə çıxış edən Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov koronavirus(COVID-19) pandemiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə zəruri qabaqlayıcı tədbirlər görüldüyünü, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinin davam etdirildiyini bildirib.

İlqar Abbasov xüsusi karantin rejimi müddətində təxirəsalınmaz tədbirlərlə əlaqədar şəhər İcra Hakimiyyəti tərəfindən Operativ Qərargahın yaradıldığını, həyata keçiriləcək işlərlə əlaqədar tədbirlər planının təsdiq edildiyini və sanitariya-gigiyena qaydalarına ciddi riayət edilməsi istiqamətində profilaktik tədbirlərin davam etdirildiyini qeyd edib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə karantin rejimi dövründə fəaliyyətinə icazə verilmiş sahələr üzrə metodiki göstərişlərin hazırlandığı və həmin göstərişlərə uyğun olaraq xüsusi karantin rejimi dövründə sanitariya vəziyytinin tənzimləndiyi bildirilib.

İcra Hakimiyyətinin başçısı İlqar Abbasov cənab Prezident tərəfindən verilmiş tapşırıqlardan düzgün nəticə çıxarmayan, rüşvət və korrupsiya hallarına son qoymayan və dövlətin mənafeyinə ciddi zərbə vuran şəxslərin dövlət tərəfindən ciddi cəzalandırılmasının davam etdirildiyini, eyni zamanda xüsusi karantin rejimi dövründə hərəkət etmək üçün qanunsuz olaraq arayış vermiş 2 icra nümayəndəsi barədə şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən toplanmış materialların araşdırılaraq müvafiq tədbirlərin görülməsi üçün şəhər prokurorluğuna göndərildiyini bildirmişdir.

İlqar Abbasov qeyd edib ki, dövlət qulluğunda işləyən hər bir məsul şəxs dövlətin mənafeyinə uyğun fəaliyyəti özünün gündəlik vəzifə olaraq müəyyənləşdirməlidir.

Video-müşavirədə iştirak edənlər öz çıxışlarında xüsusi karantin rejiminin müddətinin uzadılması və həmin rejimlə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılmasından sonra fəaliyyət sahələri üzrə yeni növ koronavirus(COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində şəhər ərazisində gördükləri işlər və həyata keçirilən qabaqlayıcı tədbirlər barədə ətraflı məlumat veriblər.

Sonda İcra Hakimiyyətinin başçısı xüsusi olaraq qeyd edib ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatına görə COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə bağlı ölkədəki vəziyyət təhlil olunduqdan sonra zərurət yaranacağı halda xüsusi karantin rejimi yenidən sərtləşdirilə bilər. Bu səbəbdən İlqar Abbasov video-müşavirə iştirakçılarını xüsusi karantin rejimində tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasından arxayınlaşmamağa və xüsusi karantin rejiminin tələblərinə ciddi riayət etməyə çağırıb, eyni zamanda aidiyyəti qurumların rəhbərlərinə tövsiyə və tapşırıqlarını verərək xüsusi karantin rejimi müddətində sanitariya-gigiyena qaydalarına nəzarət işlərinin və profilaktik tədbirlərin davam etdiriləcəyini bildirib.



## Ulu öndər Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibətilə onlayn keçirilən tədbirlər

## "Azərbaycanı tanı" adlı onlayn fərdi bilik yarışması

**Şirvan şəhər İcra Hakimiyyəti başçısının təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq 06-08 may 2020-ci il tarixlərində Şirvan şəhər İcra Hakimiyyəti, şəhər Gənclər və İdman İdarəsi və şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibəti ilə "Azərbaycanı tanı" adlı onlayn bilik yarışması keçirilib.**

Bilik yarışmasını keçirməkdə əsas məqsədi Ulu öndərin Azərbaycan uğrunda mübariz həyat tərzini, zəngin irsini və milli dəyərlərimizə bağlılığını şagirdlərə aşılamaq, şagirdlərin intellektual səviyyəsinin yüksəldilməsinə şərait yaratmaq, onlar arasında müxtəlif intellektual oyun növlərini təbliğ etmək, istedadlı məktəbliləri üzə çıxarmaq, onların Azərbaycan tarixi haqqında daha geniş biliklərə sahib olmalarına köməklik göstərməkdir.

28 nəfər məktəblinin iştirakı ilə keçirilən müsabiqə qrup və final mərhələləri olmaqla keçirilib və məktəblilər tərəfindən böyük maraqla qarşılanıb.

Yekun nəticələrə əsasən şəhər 9 nömrəli tam orta məktəbin şagirdi Elanə İslamova I yerə, 11 nömrəli tam orta məktəbin şagirdi Həmid Mirzəyev və 13 nömrəli tam orta məktəbin şagirdi Ceyhun Abdullayev müvafiq olaraq II və III yerlərə layiq görülüblər.

## Şahmat idman növü üzrə onlayn açıq şəhər birinciliyi

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ilə əlaqədar Şirvan şəhər İcra Hakimiyyəti, Gənclər və İdman idarəsi və Təhsil Respublika İdman Mərkəzinin Şirvan şəhər Uşaq Gənclər İdman Məktəbinin birgə təşkilatçılığı ilə Şahmat idman növü üzrə onlayn açıq şəhər birinciliyi 06 may 2020-ci il tarixdə başa çatdı.**

Birincilikdə ümumilikdə 45 nəfər iştirak etdi.

Yekun nəticəyə əsasən oğlanlar arasında İlqar Həşimov I yerə, Hafiz Nağıyev II yerə, Cavanşir Həşimov III yerə layiq görüldü. Qızlar arasında isə Fidan Təhməzova I yerə, Səma Novruzova II yerə, Zəhra Xəlilzadə isə III yerə layiq görüldü.

## Onlayn şəkildə keçirilən bədii qiraət (şeir) müsabiqəsi qalibləri təltif olundular

**Şirvan şəhər İcra Hakimiyyəti, şəhər Təhsil Şöbəsi, Heydər Əliyev Mərkəzi və Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə 23 aprel - 07 may 2020-ci il tarixlərində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibəti ilə ümumitəhsil məktəblərində təhsil alan şagirdlər arasında onlayn bədii qiraət (şeir) müsabiqəsi keçirildi.**

Şagirdlərin müsabiqədə şeir söylədikləri videoları təşkilatçılar tərəfindən əvvəlcədən elan olunmuş email ünvanına və facebook səhifəsinin mesaj bölməsinə göndərməklə iştirak edirlər.

Təşkilatçılar tərəfindən bədii qiraət müsabiqəsini keçirməkdə məqsəd ulu öndər Heydər Əliyevin zəngin tarixi irsinin və azərbaycançılıq məfkurəsinin böyüməkdə olan gənc nəsil arasında geniş təbliği, şagirdlərin Ümummilli lider haqqında daha geniş biliklərə sahib olmalarına köməklik və karantin rejimi müddətində uşaqların asudə vaxtının səmərəli təşkilidir.

Müsabiqənin qalibləri münsiflər heyətinin seçimi əsasında müəyyən olunmuş və yekun qərarla 1 nömrəli tam orta məktəbin şagirdi Cavad Mahmudov I yerə, 9 nömrəli tam orta məktəbin şagirdi Mehriban Əhmədova və 16 nömrəli tam orta məktəbin şagirdi Ayşən Muradova müvafiq olaraq II, III yerə, 4 nömrəli tam orta məktəbin şagirdi Fidan Vəlibəyova isə həvəsləndirici yerə layiq görülüblər.

Müsabiqənin qalibləri təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə təltif olunublar.

## "SƏN ELƏ BİR ZİRVƏSƏN...!"

**Şirvan şəhər İcra Hakimiyyəti başçısının təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq 24 aprel-07 may 2020-ci il tarixlərində Şirvan şəhər İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Şirvan şəhər Təşkilatı və şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü münasibəti ilə ümumitəhsil məktəblərində təhlis alan V-XI sinif şagirdləri arasında "Sən elə bir zirvəsən...!" mövzusunda onlayn esse(yazı) müsabiqəsi keçirildi.**

Şagirdlər mövzuya uyğun yazdıqları esseləri şəhər Təhsil Şöbəsinin e_mail ünvanına və facebook səhifəsinin mesaj bölməsinə göndərməklə müsabiqədə iştirak edirlər.

Təşkilatçılar tərəfindən yazı müsabiqəsini keçirməkdə məqsəd ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliği, şagirdlərin Azərbaycan tarixi haqqında daha geniş biliklərə sahib olmalarına köməklik göstərmək və karantin rejimi müddətində uşaqların asudə vaxtının səmərəli təşkilidir.

Müsabiqənin qalibləri münsiflər heyətinin seçimi əsasında müəyyən olunmuş və yekun qərarla 1 nömrəli tam orta məktəbin şagirdi Samirə Quliyeva I yerə, 13 nömrəli tam orta məktəbin şagirdi Nurcan Rzayeva və 21 nömrəli tam orta məktəbin şagirdi Zeynəb Hüseynli müvafiq olaraq II, III yerə, 10 nömrəli tam orta məktəbin şagirdi Məryəm Hüseynova isə həvəsləndirici yerə layiq görülüblər.

Müsabiqənin qalibləri diplom və hədiyyələrlə təltif olunublar.

# VETERANLAR ZİYARƏT EDİLMİŞLƏR

**Doğma Azərbaycanımızın mərd oğul və qızları 1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbənin qazanılmasında fəal iştirak edib, fədakarlıq nümunələri göstəriblər. Bu mərdliyin və igidliyin təzahürüdür ki, minlərlə azərbaycanlı müharibənin başlandığı ilk gündən döyüş cəbhəsinə getmişdi. Arxa cəbhədə qalanlar isə yaşlı kişilər və qadınlar idi. Onlar döyüşə gedənləri əvəz etmək üçün bütün qüvvələri ilə çalışırdılar. 1941-1945-ci illər müharibəsində 700 minə yaxın azərbaycanlı cəbhədə vuruşub. Yüzlərlə əsgər və zabitimiz orden və medallarla təltif edilib. Azərbaycandan 130 nəfər "Sovet İttifaqı Qəhrəmanı" kimi yüksək ada layiq görülüb.**

Azərbaycanlılardan ibarət 416-cı, 402, 223-cü, 77-ci diviziyalar şərəfli döyüş yolu keçmiş soydaşlarımızın təqribən yarısı döyüşlərdə qəhrəmancasına həlak olub. 416-cı diviziya Şimali Qafqazdan Berlinədək ağır döyüş yolu keçmiş, diviziyanın əsgərləri Berlində qələbə bayrağını ilk qaldıranlar sırasında olub. 1941-1945-ci illərdə azərbaycanlılar arxa cəbhədə də fədakarlıqları ilə seçiliblər. Onlar ordunun ehtiyacını ödəmək üçün bütün qüvvələri səfərbərliyə almış, gecəni gündüzə qataraq çalışmış, qələbənin qazanılmasına öz töhfələrini vermişlər.

Qələbənin əldə olunmasında Azərbaycan nefti xüsusi rol oynayıb. O, dövrdə SSRİ-də çıxarılan neftin 80 faizi Azərbaycanda hasil edilib. Sovet ordusunun tank və təyyarələrinin böyük əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. 1941-1945-ci illər müharibəsinə Əli Bayramlı rayonundan (indiki Şirvan şəhərindən) 8 min nəfərdən çox insan orduya səfərbər olunub. Müdafiə fonduna hər cür köməkliklər göstərilib. Müharibə veteranları daim diqqət və qayğı ilə əhatə olunub. Həmyerlimiz Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürovun adı əbədiləşdirilib. Mədəniyyət və İstirahət parkında və məzarı üzərində büstü qoyulub.

Ümummilli lider Heydər Əliyev qələbənin qazanılmasında xidməti olan insanlara daim diqqət və qayğı göstərirdi. Ulu öndərin yenidən siyasi hakimiyyətə qayıdışından sonra da 9 May respublikamızda Qələbə Günü kimi bayramlar sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi gücləndirilmişdi.

Bəli, ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi; "Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən möhtəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".

Ümummilli lider Heydər Əliyevin tövsiyəsi bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövlət səviyyəsində yerinə yetirilir. Hər il olduğu kimi bu il də 1941-1945-ci illər müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilən həmin şəxslərə birdəfəlik maddi yardımlar göstərilib. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müharibə veteranlarına göstərdiyi diqqət və qayğı yerlərdə də davam etdirilir.

Şirvan şəhər İcra Hakimiyyətinin məsul işçiləri xüsusi karantin rejiminin qaydalarını gözləməklə şəhərdə yaşayan arxa cəbhə veteranlarını yaşadıqları evdə ziyarət edib. Onları 9 May Qələbə günü münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıblar. Arxa cəbhə veteranlarına zəruri gündəlik tələbat mallarından ibarət ərzaq sovqatları verilib, problemləri ilə maraqlanılıb.

Veteranlar onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

# BUNUN BİR ADI VAR: -XƏYANƏT!

**Heç kimə heç bir imtiyaz verilmir və verilməyəcək.**

***İlham ƏLİYEV***

**Bəli, ölkə Prezidenti İlham Əliyev korrupsiya və rüşvətxorluğa qarşı mübarizəni gündən-günə gücləndirir. Bu istiqamətdə doğru və qətiyyətli addımlar atır. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə müxtəlif sahələrdə islahatlar uğurla həyata keçirilir. İslahatlar sosial-iqtisadi sahələri əhatə etməklə yanaşı struktur dəyişiklikləri qaçılmaz edib.**

Dövlət başçısı islahatları həyata keçirməklə yanaşı, korrupsiyaya və digər mənfi əməllərə qarşı da mübarizənin gücləndirilməsini vacib sanır.

Bu gün bəşəriyyət koronovirus kimi ciddi pandemiya ilə üz-üzədir. Azərbaycan dövləti vətəndaşların sağlamlığının, təhlükəsizliyinin təmini məqsədi ilə qabaqlayıcı tədbirlər görmüşdür. Bu məqsədlə həyata keçirilən tədbirlər müsbət nəticəsini göztərir.

Təəssüf ki, belə ağır günlərdə xalqın, dövlətin malını mənimsəyən məmurları da gördük. Belələri öz naqis əməlləri ilə xalqın haqlı tənbehləri ilə qarşılaşdılar. Qanunlarımız isə keskinliyi ilə özünü göstərdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ən möhtəbər iclaslarda, müsahibələrində dönə-dönə vurğulamışdır ki, dövlət qulluqçusu, hər bir məmur xalqın xidmətində olmalıdır. Onlar insanlara qarşı diqqətli olmalı, hər bir xahişə, təklifə, şikayətə həssaslıqla yanaşmalıdırlar. Son vaxtlar qarşılaşdığımız üzücü hadisələr heç də bütün məmurların dövlət başçısının tapşırıq və tövsiyələrinə əməl etmədiklərini göstərdi. Onlar nəinki rüşvət alır, korrupsiya çirkabına yuvarlanıblar, eyni zamanda bu ağır gündə imkansıza, kasıba ayrılan ərzağa da göz dikiblər. Bunun bir adı var:-xəyanət!

Bəli, bu dövlətə, xalqa xəyanətdir. Böyük etimad göstərib bir rayonu, bir şəhəri sənə etibar etmiş dövlət başçısına xəyanətdir. Xəyanət isə bağışlanmır. Ölkə Prezidenti İlham Əliyevin burada müdrik bir kəlamını xatırlamamaq olmur: "Heç kimə heş bir imtiyaz verilmir və verilməyəcək".

Son bir neçə ay ərzində yüksək vəzifəli məmurların rüşvətxorluğa, korrupsiyaya görə cinayət məsuliyyətinə cəlb olunması bunu bir daha sübut etdi. Prezidentin tövsiyələrindən nəticə çıxarmayan bəzi sabiq icra başçıları qanun qarşısında cavab verməli oldular. Ağstafa, Yevlax, Neftçala, Biləsuvar, İmişli rayon İcra Hakimiyyəti başçılarına qarşı Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən uğurlu əməliyyatlar keçirildi, onların rüşvət almaları barədə təkzibolunmaz sübutlar təsdiqləndi. Barələrində cinayət işi açıldı. Məhkəmə tərəfindən həbs qətiimkan tədbiri seçildi.

Sosial müdafiəyə ehtiyacı olan şəxslərin əməkhaqqı kartlarını mənimsəyənlərə nə ad vermək olar?

Vəzifədən, göstərilən etimaddan sui-istifadə edən məmurların hərəkətlərini necə qiymətləndirməliyik?! Əhalinin sosial rifahını yaxşılaşdırmağa hesablanmış aztəminatlı təbəqə üçün ictimai iş yerlərinin yaradılması məqsədi ilə ayrılmış pula göz dikənlərə nə ad verəsən?!

Bəzi rayon, şəhər icra hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin koronovirus pandemiyası dövründə qanunazidd hallara yol vermələri də bağışlanılmazdır. Belələri haqqında aidiyyatı üzrə rayon və şəhər prokurorluğunda cinayət işləri açılıb.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Respublikanın Baş prokurorunu təyin etdi. Dövlətimizin başçısı Baş prokuror Kamran Əliyevi vidioformatda qəbul edərkən korrupsiya və rüşvətxorluqla mübarizə tədbirlərinin bundan sonra da davam etdiriləcəyini bir daha bəyan etmişdir.

Bəli, bu gün Azərbaycan Respublikasında dövlət strukturlarının əhalinin sağlamlığının qorunması, digər sahələr üzrə xidmət fəaliyyətinin təşkili istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi məmurların mövcud vəziyyətdən öz şəxsi maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının işinə kölgə salan hüquqazidd əməllərə yol verilməsinə dair məlumatlar əsasında araşdırmalar davam etdirilir, günahkarlar barədə ölçü götürülür. Bu şəhərimizin ağsaqqallarının da üreyindəndir. Biz Şirvanlılar həmişə Prezident İlham Əliyevə, Birinci vitse- prezident Mehriban xanım Əliyevaya arxa, dayaq olmuşuq və bundan sonra da olacağıq.

Biz dövlət qurumları, vətəndaş cəmiyyətləri ilə bir nöqtəyə vurmalıyıq. Biz həmrəylik göstərmişik və göztərəcəyik də. Biz ağsaqqallar da koronovirus kimi pandemiya üzərində qələbə qazanılmasında Prezidentin yaxın köməkçisi olduğumuzu əməli işimizlə sübüt edəcəyik.

Biz korrupsiya və rüşvətxorluğa yox deyirik. Bu istiqamətdə Prezident tərəfindən atılan hər bir addımı dəstəkləyirik.

**Fəxrəddin RƏHİMOV,**
**Şirvan şəhər Ağsaqqallar Şurasının sədri**

FAŞİST ALMANİYASI ÜZƏRİNDƏ QƏLƏBƏNİN 75 İLLİYİ



# SOVET İTTİFAQI QƏHRƏMANI



Ş.Şükürov (soldan 4-cü) rəsmi tədbirlərin birində. 1981-ci il

**1960-cı illər idi. Atamla yaşadığımız kənddən rayon mərkəzinə-Əli Bayramlıya (indiki Şirvan şəhəri) gəlmişdik. Köhnə şəhərdəki bazarda atamla bir kişi çox səmimi görüşdü. Bir-birlərindən hal-əhval tutdular. Baxışlarından səmimiyyət yağan bu kişi mənim başıma sığal çəkib soruşdu:**

-Necə oxuyursan? Cavabımı gözləmədən:

-Yaxşı oxumaq lazımdır. Bizim o illərimiz müharibə dövrünə düşdü. Siz bu fürsəti əldən verməyin...Ayrılandan sonra siması mənə tanış gələn kişinin kim olduğunu soruşdum. Atam cavabında dedi ki, o gün kitab almışdım ha, «Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları» kitabında sən göstərdiyim qəhrəmanımız Şirin Şükürovdur.

Qəhrəman Şirin Şükürovla ilk tanışlığım belə oldu. Artıq Əli Bayramlıda yaşayırdıq. 9 nömrəli məktəbdə VIII sinifdə oxuyurdum. Bir gün məktəbimizin direktoru, Böyük Vətən müharibəsinin odlu-alovlu günlərini görmüş rəhmətlik Ərzuman Gülmalıyev sinifə daxil olub dedi:

-Uşaqlar, sabah qəhrəmanımız Şirin Şükürovla görüş keçirəcəyik. Sakitliyə riayət edin. Sual vermək istəsəniz əvvəlcədən müəllimlərinizdən biri ilə məsləhətləşin. Məsləhət olsa soruşun...

Deyilən həmin gün məktəbin zalı dolu idi. Hamımız qəhrəmanımızı səbirsizliklə gözləyirdik. Şirin Şükürov direktorla zala daxil olanda ayağa qalxıb onu alqışladıq. Uşaq olsam da bu təmtəraqla qarşılaşmanın qəhrəmanın xoşuna gəlmədiyini hiss etdim. O əlini yuxarı qaldırıb sakit səslə bizə təşəkkür etdi. Bununla alqışlarımızı mədəni şəkildə kəsdi.

Direktor Ə.Gülmalıyev məlumat xarakterli qısa çıxış etdi. Sonra sözü tarix müəllimi Mayqa Həsənovaya verdi. Mayqa müəllim 1941-45-ci illərdə faşist Almaniyasına qarşı döyüşən azərbaycanlılardan danışdı. İsrafil Məmmədovun, Həzi Aslanovun, Mehdi Hüseynzadənin və başqalarının misilsiz qəhrəmanlıqlarını dilə gətirdi.

Sonra həmyerlimiz Şirin Şükürovun şərəfli döyüş yoluna nəzərimizi cəlb etdi. Mozdok, Kerç ətrafında, Krım cəbhəsində gedən döyüşlərdəki şücaətindən danışdı. Kerç faşistlərdən təmizlənərkən döyüşlərdə fərqləndiyinə görə «İgidliyə görə» medalı ilə təltif olunduğunu söylədi.

Ş.Şükürovun Belarusiya cəbhəsindəki vuruşlardan danışarkən Şirin kişi üzr istəyib müəllimin sözünü kəsdi. Dedi ki, müharibə illərində hər bir əsgər, hər bir zabit Vətən uğurunda qəhrəmanlıq göstərib. Minlərlə əsgər döyüş meydanında həlak oldu. Taleh elə gətirdi ki, bizlər sağ qaldıq. Dövlətimə minnətdaram ki, xidməti qiymətləndirdi. Amma məni çox təriflməyin, həlak olanların ruhu bizdən inciyər...



1980-ci illərin yadigarı olan bu şəkildə Sovet İttifaqı Qəhrəmanı Şirin Şükürov ailə üzvləri arasında

Çox sonralar Şirin dayının nə qədər təvazökar, sadə insan olduğunu dərk etdim.

Mayqa müəllim çıxışını yekunlaşdırmalı oldu. Berlinə qədər şərəfli döyüş yolu keçmiş Şirin Şükürovun SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 fevral 1945-ci il tarixli Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldüyünü söyləyib çıxışını yekunlaşdırdı.

Şirin Şükürova söz verildi. O özü də qısa çıxış etdi. Onun bir fikri bu gün yaxşı yadımdadır. Dedi ki, uşaqlar, getsin o günlər gəlməsin. Bunu faşistlərin törətdikləri faciələri gözləriylə görən bir əsgər kimi deyirəm. Yaxşı oxuyun, elimizə, obamıza, adamlarımıza layiqli övladlar olun. Biz müharibə istəmirik, amma müharibəyə də hazır olmalıyıq. Çünki bizi istəməyənlər çoxdur. Xüsusilə oğlanlarımız kişi kimi böyüməlidirlər. Düşmən çəpəri olduqlarını göstərməlidirlər. Mən tam inanıram ki, bu belə də olacaqdır.

Sonra şəhər 10 nömrəli orta məktəbdə təhsilimi davam etdirərkən qəhrəman Şirin dayının oğlu Ağazəri, ümumiyyətlə bu ailəni yaxından tanıdım. Taleh elə gətirdi ki, jurnalist kimi fəaliyyətə başlayandan sonra Şirin Şükürovla tez-tez görüşməli olurdum. Axı o el ağsaqqalı və şəhərin fəallarından idi. O iclas, o tədbir olmazdı ki, Şirin dayı orada olmasın. Xüsusi ilə gənclərin hərbi hissələrə yola salınma mərasimlərində, veteranlarla görüşlərdə, xeyir işlərimizdə Şirin Şükürov hər birimiz üçün arzu olunan qonaq olardı.

Şəhərin ictimai işlərində, şəhər Sovetinin deputatı kimi fəallığı ilə fərqlənirdi. Sovet dönəminin son illərində şəhər partiya komitələrinin I katibləri hər yerdə ironiya ilə «kiçik padşahlar» adlandırılırdılar. Şəhər partiya komitəsinin plenum, büro üzvü, bir ağsaqqal kimi Şirin Şükürov neçə-neçə haqsız işin qarşısını alıb. «Kiçik padşahlar» isə onun sözündən, haqlı iradından çəkinərdilər.

Təkcə şəhərimizdə deyil, qonşu rayonlarda, hətta paytaxtda da sözü keçərli olan qəhrəmanımız öz sadəliyi, mehribanlığı ilə fərqlənirdi. Respublika rəhbərliyi tərəfindən, keçmiş SSRİ-nin çox şəhərlərində yaxşı tanınan Şirin Şükürovun sadəliyi ilk baxışda diqqəti cəlb edirdi. Kasıb ailədə doğulub zəhmətlə böyümüş Şirin Şükürov uşaqlarını elə tərbiyə edirdi ki, onlardan heç kəs narazı qalmasın. Şirin Şükürov ömür-gün yoldaşı Minə xanımla 6 övlad böyüdüb tərbiyə etmişdir. Böyük qızı Qəndab Bakı şəhərində yaşayır. Təqaüddədir. Təcrübəli müəllim kimi həmişə nümunə olub.

Həkim oğlu Agazər uzun illər şəhərimizdə və qonşu rayonların birində ağxalatlılar kollektivinə rəhbərlik edib. İndiki Şirvan şəhər stomotoloji poliklinikasının, Şirvan MŞX-nin və Neftçala rayon mərkəzi xəstəxanasının baş həkimi işləyib. Vadər mühəndisdir. Vurğun respublika hərbi prokurorluğunda məsul vəzifədə çalışır. Fəridə dil-ədəbiyyat müəllimi, sonbeşik Ağabala da bu ocağın layiqli övladı olduğunu sübut edib.

Şükürovlar ailəsi Şirvanda hörmət edilən, nüfuzlu ailələrdən biridir. 1987-ci ildə 77 yaşında haqq dünyasına qovuşan Şirin Ağabala oğlu Şükürov rəhmət sözünü sağlığında qazanıb. Sadə, zəhmətsevər əxlaqlı övladlar tərbiyə edib. Yaşadığı küçə onun adını daşıyır. Büstü Kürsahili parkda qoyulub. Büstün ətrafı tər çiçək dəstələrinə qərq olur. Uyuduğu el qəbiristanlığındakı məzarı tez-tez ziyarət edilir.

Haqq dünyasına qovuşandan sonra xoş xatirələrlə yad edilmək hər kişiyə nəsib olmur. Şirin Şükürov isə bunu qazanıb.

Faşist Almaniyası üzərində qələbənin 75 illiyi günlərində Şirin dayının qəbri tez-tez ziyarət olundu. Bu sənin haqqındır, qəhrəman həmyerlimiz!

**F.RƏHİMOV**

# Faşizm üzərində qələbənin 75 illiyi münasibətilə “Qələbə-75” adlı onlayn rəsm müsabiqəsi

**Şirvan şəhər İcra Hakimiyyəti başçısının təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq 05-08 may 2020-ci il tarixlərində Şirvan şəhər İcra Hakimiyyəti, şəhər Gənclər və İdman İdarəsi və şəhər Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə 9 may faşizm üzərində qələbənin 75 illiyi münasibətilə “Qələbə-75” adlı onlayn rəsm müsabiqəsi keçirilib.**

Məktəblilər çəkdikləri rəsm əsərlərinin fotolarını şəhər Gənclər və İdman İdarəsinin facebook səhifəsinin mesaj bölməsinə göndərməklə müsabiqədə iştirak ediblər.

Müsabiqənin təşkilində məqsəd karantin rejimi müddətində uşaqların asudə vaxtının səmərəli təşkili, gənc nəslin milli-dövlətçilik ruhunda tərbiyəsi və istedadlı uşaqların bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsindən ibarətdir. Munsiflər heyətinin qərarı ilə şəhər 9 nömrəli tam orta məktəbin şagirdi Aysu Xələfovanın rəsm əsəri I yerə, 1 nömrəli tam orta məktəbin şagirdi Nihad Həsənovun və 12 nömrəli tam orta məktəbin şagirdi Gülay Məmiyevanın əsərləri isə müvafiq olaraq II və III yerlərə layiq görülmüşdür.

Müsabiqənin qalibləri diplom və hədiyyələrlə təltif olunacaqlar.

# QƏZETİMİZİN FƏALI MÜSABİQƏ QALİBİDİR

**Oxucularımız «İŞIQ» ın səhifələrində tez-tez Aidə Cənnətqızı və ya Aidə Abbasova imzasına tez-tez rast gəlirlər. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini ötən il uğurla bitirmiş Aidə xanım qəzetimizin ictimai müxbiridir. «İŞIQ» üçün müxtəlif qəzet janrlarında hazırladığı yazılar gələcəkdə onun yaxşı qələm sahibi olacağına ümid verir.**

Bu günlərdə eşitdiyimiz şad xəbər bizi də sevindirdi. Hələ təzə-təzə qələm təcrübəsi toplayan Aidə Abbasova (Aidə Cənnətqızı) BMT-nin gender həssas Dayanaqlı İnkişaf Məqsədləri, onların hədəf və indikatorlarına dair KİV nümayəndələri arasında keçirilən məqalə və materialların hazırlanması üzrə müsabiqədə qalib gələrək sertifikat alıb.



AVROPA İTTİFAQI
EURASIA PARTNERSHIP FOUNDATION
DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ
DataHub
UNDP
Empowered lives. Resilient nations.

SERTİFİKAT

verilir

Aida Abbasova

BMT-nin genderə həssas Dayanıqlı İnkişaf Məqsədləri, onların hədəf və indikatorlarına dair KİV nümayəndələri arasında keçirilən məqalə və materialların hazırlanması üzrə müsabiqədə

QALİB GƏLDİYİNƏ görə.

Nailə Həşimova

Aidə xanımı təbrik edir, ona yeni-yeni uğurlar arzulayırıq.

**Ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələr sırasında abadlıq-quruculuq işlərinə xüsusi yer ayrılır. Bir çox küçə və prospektdə yaşayış binaları və parkların müasir üslubda bərpası, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yol infrastrukturunun təmiri işləri davam etdirilir.**

# Məhəmməd Füzuli adına Şirvan şəhər Parkında əsaslı yenidənqurma işləri davam edir

Ölkə prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin digər bölgələri kimi Şirvan şəhəri də abadlaşmaqda və müasirləşməkdə davam edir. Ölkə başçısının görüləcək abadlıq və quruculuq işlərinin günün tələbləri səviyyəsində qurulması ilə bağlı tövsiyə və tapşırıqlarına müvafiq olaraq, 2020-ci ilin keçən dövrü ərzində Şirvan şəhərində sosial-infrastruktur layihələrinin icrası uğurla davam etdirilir. Həyata keçiriləcək abadlıq-quruculuq işləri içərisində Məhəmməd Füzuli adına Şirvan şəhər Mədəniyyət və İstirahət parkının əsaslı şəkildə yenidən qurulması xüsusi yer tutur. Hazırlanmış xüsusi layihə əsasında ərazisi 7,4 hektar olan parkda birinci mərhələdə nəzərdə tutulmuş işlərin icrasına başlanılıb, parkın mərkəzi hissəsində yerləşən kanalın və süni gölün xüsusi texnikalar vasitəsi ilə təmizlənməsi başa çatdırılıb.

Kanalın layihələndirilməsi məqsədi ilə “Sukanal” Elmi-Tədqiqat və Layihə İnstitutuna müraciət olunub.

“Xocalıya ədalət” beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində fevral ayında keçirilən ağacəkmə aksiyasında parkda Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə 613 ağac əkilib. Ərazidə olan yaşıllıq sahələrindəki qurumuş ağaclar götürülmüş, digərləri isə budanaraq səliqə-səhmana salınmışdır. Uzun illər istifadəsiz qalmış və istismara yararsız vəziyyətə düşmüş əyləncə və idman qurğuları, körpülər, kommunikasiya xətləri parkın ərazisindən sökülərək götürülmüşdür. Tikinti işlərinin aparılması məqsədi ilə parkın ərazisinə 2000 kub metrdən çox ağ qum tikinti materialı daşınmışdır.

Parkda aparılan yenidənqurma işləri ilə bərabər N.Nərimanov küçəsində 11 fərdi yaşayış evinin kanalizasiya xətlərinin çıxışı təmin edilmiş, diametri 250 mmlik 185 p/m koreqa borudan ibarət yeni kanalizasiya xətti çəkilmişdir. Hazırda parkda əsaslı yenidənqurma və təmir işləri davam etdirilir.

**2020-ci il ərzində Şirvan şəhərində həyata keçiriləcək sosial-infrastruktur layihələri içərisində magistral və məhəllədaxili yol infrastrukturunun təmir və bərpası işləri mühüm yer tutur. Belə ki, bu istiqamətdə kompleks tədbirlə həyata keçirilir, şəhər ərazisində əsas magistrallara çıxan torpaq əsaslı məhəllədaxili və uzun müddətdir istismar olunan yollara yeni asfalt örtüyü salınır.**

## Yol infrastrukturunun yenidənqurma və təmir-bərpa işləri davam etdirilir

Ümumilikdə il ərzində mərhələli şəkildə şəhərin 25 küçəsində 70500 kv. metrdən çox asfalt-beton örtüyünün salınması nəzərdə tutulmuşdur. Artıq şəhərin F.X.Xoyski küçəsində 2592 kv.m, İ.Şıxlı küçəsində 4725 kv.m və Hacıqabul-Şirvan avtomobil yolunun 4 və 5-ci km-lərində 15400 kv.m sahədə asfalt-beton örtük vurulmuşdur. Heydər Əliyev və İstiqlaliyyət prospektlərində, T.İsmayılov, Xəqani, Z.Hacıyev, I-nt İbrahimov, 20 Yanvar və M.Ə.Rəsulzadə küçələrində alfalt örtüyündə olan çalaların təmiri işlərinə başlanılıb. Bundan əlavə Heyranxanım-1 küçəsində 2080 kv.m., Heyranxanım-2 küçəsində 2180 kv m., S.Bəhlulzadə küçəsində 2180 kv m., Niyazi küçəsində 2235 kv m., R.Rza küçəsində 2290 kv m., Təbriz küçəsində 2290 kv m., Y.V.Çəmənzəminli küçəsində 2290 kv m., X.Məmmədov küçəsində 2290 kv m., Ərəblinski küçəsində 2290 kv m., C.Qaryağdıoğlu küçəsində 2290 kv m., Q.Qarayev küçəsində isə 2290 kv m. sahədə yollara qum çınqıl qatı veriləvək asvalt-beton örtük qoyulması üçün hazırlıq işləri aparılıb. Şəhərin Heydər Əliyev prospektində Energetik küçəsindən Məhəmməd Füzuli adına parka keçən hissədə uzun illər istifadə olunmamış yeraltı keçidin bərpa işlərinə başlanılıb. Eyni zamanda, Heydər Əliyev prospektində avtomobillərin hərəkətinin intensivliyini və baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması məqsədi ilə Şirvan şəhər İcra Hakimiyyəti tərəfindən "Azəravtoyol" ASC-yə ünvanlanmış müraciət əsasında prospektin Xəqani küçəsi ilə kəsişməsində yerüstü keçidin layihələndirilməsi işlərinə başlanılıb. Şəhər ərazisində avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində işlər davam etdiriləcəkdir.

# Şirvan şəhər Tarix-Diyarşünaslıq muzeyi - 40




**Bu ilin aprel ayında muzeyimizin fəaliyyətinin 40 ili tamam oldu. Arxaya nəzər salsaq deyə bilərik ki, diyarımızın qədimlərdən bu yana formalaşan tarixi mədəniyyətinin qorunduğu, mühafizə edildiyi, təbliğ olunduğu muzeyimiz zəngin inkişaf yolu keçmişdir.**

1980-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi vəzifəsində işləyən Heydər Əliyevin göstərişi ilə respublikanın şəhər və rayonlarında tarix və tarix-diyarşünaslıq muzeylərinin geniş şəbəkəsi yaradıldı. Bu, ümummilli lider Heydər Əliyevin çox böyük uzaqgörənliyi idi. "Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır", deyən ümummilli lider Heydər Əliyevin Tarix-diyarşünaslıq muzeylərinin yaradılmasında məqsədi Azərbaycan xalqına məxsus tariximizin hansısa səhifəsini özündə əks etdirən maddi-mədəni irs nümunələrini itib batmaqdan qorumaq, onları təbliğ etmək, gələcək nəsillərə çatdırmaq idi. Həmin muzeylərdən biri də 22 aprel 1980-ci ildə bizim şəhərimizdə yaradıldı.

Əli Bayramlı şəhər Tarix-diyarşünaslıq muzeyi kimi fəaliyyətə başlayan muzeyin fondunda bu gün bölgəyə xas olan tarixi elementləri, zəngin maddi mədəni irs nümunələrini özündə əsk etdirən 11 mindən artıq eksponat qorunub saxlanılır. İlk vaxtlar muzeyin ştat cədvəli 4 işçidən ibarət idi- direktor , elmi işçi, muzey baxıcısı və xadimə.

Muzeyin ilk direktoru Sona xanım Babayeva olmuşdur. Şəhərimizin qabaqcıl maarifpərvər qadınlarından olub. Uzun müddət şəhər Maarif şöbəsinə rəhbərlik edib, şəhər Qadınlar Şurasının sədri olmuş və respublikanın Əməkdar müəllimi adına laiq görülmüşdür.

Ötən illərdə muzeyimizdə 100-dən artıq insan çalışıb. Onların əksəriyyətinin ilk iş yeri Şirvan şəhər Tarix-diyarşünaslıq muzeyi olmuşdur. Bunların sırasında şəhər Hacıqəhrəmanlı qəsəbə Bələdiyyəsinin sədri Samirə Abışova, şəhər Mədəniyyət Mərkəzinin direktoru Nəmidə Nəmini, "Avropa" kurslarında dərs deyən Qədriyyə Quliyeva, şəhər 2 nömrəli tam orta məktəbdə işləyən Mətanət Musayeva və başqalarının adlarının çəkmək olar. Muzeyin ilk binası Məhəmməd Füzuli adına mədəniyyət və istirahət parkının ərazisində yerləşən, 160 kv metr sahəyə malik olan uyğunlaşdırılmış bina olmuşdur. 2004-cü ilin oktyabr ayında muzey 6 mərtəbəli yaşayış binasının 2-ci mərtəbəsində, sahəsi 530 kv. metr olan bir yerdə yerləşdirilmişdir.

Muzeyimiz mədəni-maarif müəssisəsi olmaqla yanaşı, eyni zamanda elmi-tədqiqat mərkəzləridir. Fəaliyyət göstərdiyi 40 il ərzində muzey zəngin fonda malik olmuşdur. Toplama işi - arxeologiya, numizmatika, etnoqrafiya, sənədlər, fotoşəkillər, çap nəşrləri, qəzetlər, videomateriallar və digər bölmələr üzrə aparılır. Həm ölkəşünaslığa, həm də diyarşünaslığa aid olan eksponatlar arasında elələri var ki, istənilən muzeyin fəxri ola bilər. Amma onlarla fəxr etmək məhz bizim muzeyin qismətinə düşüb. Bizim eradan əvvəl I minilliyin ortalarına aid olan gil küpə, 2005-ci ildə muzeyin fonduna daxil olmuş küp qəbir belə eksponatlardandır. Küp-qəbir bizim eranın II-III əsrlərinə aiddir.

2002-ci ildə Şirvan şəhərinin ərazisində ilk dəfə arxeoloji qazıntı işləri aparılmışdır. Qazıntılar nəticəsində əldə edilmiş onlarla eksponat muzeyin fonduna daxil edilmişdir. Muzeydə qorunub saxlanılan Şirvan şəhərinin tarixini öyrənmək baxımından maraqlı olan eksponatlar çoxdur.

Şirvan şəhər Tarix-diyarşünaslıq muzeyi şəhərimizin sayılıb-seçilən mədəniyyət müəssisələrindəndir. Ötən illər ərzində muzeyimiz onlarla rəngarəng tədbirlər keçirib, diyarımızın, şəhərimizin tarixinin öyrənilməsində və təbliğində az iş görməyib. Bunların hamısı direktorumuz, Gülşən Vəliyeva başda olmaqla gənc işgüzar muzey işinin incəliklərini yaxşı bilən və bilmədiklərini öyrənən kollektivimizin sayəsində baş tutmuşdur.

Muzeyin fəaliyyətinin 40 illik yubileyi münasibətilə Sabirabad Regional Mədəniyyət İdarəsi muzeyin kollektivini təbrik etmiş və Fəxri Fərmanla təltif etmişdir. Kollektivimizi bir daha muzeyin 40 illik yubileyi münasibəti ilə təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

**Aynur İbrahimova,**
**Şirvan şəhər Tarix-Diyarşünaslıq Muzeyinin direktor müavini**

## Bunları bilmək maraqlıdır

Ən dərin göl Baykaldır. Bu gölün dərinliyi 1620 metrə çatır. Baykal həm də dünyanın ən çox sulu gölüdür. Bu su hövzəsinə 336 çay tökülür.

***

Dünyada ən hündür zirvə Çinlə-Nepal arasında yerləşən Comolunqma dağındakı Everest zirvəsidir. Bu zirvə dəniz səviyyəsindən 8863 metr hündürdür.

***

«Marafon» sözü Afina yaxınlığında yer adıdır. Bizim eradan əvvəl 490-cı ildə burada yunanlarla-farslar arasında döyüş baş verir və yunanalar qalib gəlirlər. Bu xəbəri Afinaya çatdırmaq üçün Flydinid adlı bir qaçışçı dayanmadan 40 km qaçır və Afinaya çatıb qələbə xəbərini verən kimi yıxılıb ölür. 1896-cı ildə Marafon yarışları olimpiya oyunları proqramına daxil edilmişdir.

***

Şahmatın vətəni Hindistan hesab edilir. Tarixdən məlumdur ki, 1300 il bundan əvvəl Hindistanda və İranda bu oyun geniş yayılmışdır.

***

Peyğəmbərimiz Hz.Məhəmmədin (S.Ə.S.) sevimli nəvəsi Hz. Həsən (Rə) insanları üç sinifə ayırırdı: 1.Tam adam. 2.Yarım adam. 3. Sıfır adam.

Tam adam: həm öz fikri var, həm də, başqalarının fikrinə qiymət verir.

Yarım adam: öz fikri var, ancaq başqalarının fikrinə qiymət vermir.

Sıfır adam: Nə öz fikri var, nə də başqalarının fikrinə qiymət verir.

***

Armud ağacının meyvəsi təkcə çiçəkdən əmələ gəlmir. Onun yarpağından əmələ gələn növü də vardır.

***

Mərkəzi Amerikada bitən afave ağacı ömründə bircə dəfə əkildiyinin, onuncu ilində çiçək açır. Meyvəsi yetişəndən sonra ağac quruyur.

***

Dünyada ən çox adam qırğınına səbəb olan zəlzələ 1556-cı ildə Çinin Şansi vilayətində baş vermişdir. Bu zəlzələ zamanı 830 min adam ölmüşdür.

***

Krımda «Artek» ümumittifaq pioner düşərgəsi 1925-ci ildə,16 iyunda açılmışdır.

***

Rusiyada ilk kurort 1769-cu ildə açılmışdır. Məşhur olan bu kurort hazırda da fəaliyyət göstərir.O, Kareliya ərazisində yerləşir.

***

Planetimzdə məhsulu olan 450 növ bitki vardır.

**Topladı: Əziz NƏSİBLİ**

## ALLAH RƏHMƏT ELƏSİN

YAP Şirvan şəhər təşkilatının kollektivi təşkilatın sədri **SAMİD ABIYEVİN** vəfatından kədərləndiklərini bildirir, mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

***

YAP Şirvan şəhər təşkilatı Gənclər birliyinin sədri Namidə Namini təşkilatın sədri **SAMİD ABIYEVİN** vəfatından kədərləndiyini bildirir, mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

**Son zamanlar qaz cihazlarının istismarı zamanı əhali arasında dəm qazından zəhərlənmə halları artmışdır. Müəyyən olunub ki, bu hadisələrin əksəriyyəti vətəndaşların təhlükəsizlik qaydalarına riayət etməməsi səbəbindən baş verir.**

# DƏM QAZINDAN EHTİYATLI OLUN!

Dəm qazından zəhərlənmə halı yandığın olduqda, sobanın qapağı erkən bağlandıqda, qarajda, qapalı məkanda avtomobil mühərriki işlədikdə ağzı bağlı kabinədə uzun müddət qaldıqda baş verir. Mənzillərdə isə dəm qazından zəhərlənmə təhlükəsi əksər hallarda evi qızdırıcı cihazlarla qızdırarkən və ya hamam otağında baş verir.

Kimyəvi adı karbon monoksid olan dəm qazı yanacaq məhsullarının natamam yanması nəticəsində əmələ gəlir. Bu qaz iysiz və rəngsiz olduğundan hiss edilmir. Qapalı şəraitdə daha da təhlükəli olur. Karbon monooksid tənəffüs zamanı ağsiyərlərdən qana daxil olur. Adətən oksigenlə birləşməli olan hemoqlobin bu dəfə karbon monooksidlə birləşməyə başlayır və karboksihemoqlobin yaradır və qan artıq oksigeni daşıya bilmir. Bu proses oksigenlə birləşmədən 300 dəfə daha intensiv baş verir. İnsan oksigen çatışmazlığından boğulmağa başlayır. İnsan ürəyi bir vurmaya 200 mi-dən çox qan sərf etdiyindən ağsiyərlərə düşən dəm qazı sayılan saniyələr ərzində bütün orqanizm boyu yayılır.

Dəm qazından zəhərlənmə zamanı bu sindromlar özünü biruzə verir: yaşaran gözlər, başağrısı, başgicəllənmə müşahidə olunur. Getdikcə zəiflik, ürəkbulanması, quru öskürək, hafizənin keyləşməsi, eşitmə və görmə hallyusinasiyaları başlayır. Qıcolma tutmaları və nəhayət, tənəfffüs mərkəzinin iflici nəticəsində ölüm baş verir.



Mənzildə dəm qazı təhlükəsinin qarşısını almaq üçün bir sıra qaydalara riayət edilməlidir. Yadda saxlayın ki, evinizdə qeyri-standart, yeni kustar üsulla hazırlanmış cihazların quraşdırılması və istifadəsi təhlükəldiir.

Mənzildə qızdırıcıların havaçəkmə borularının düzgün işləməsinə nəzarət edilməldiir. Unutmayın ki, qızdırıcı soba ilə mənzilin ölçüsü uyğun gəlməldir. Misal üçün, mətbəx həddindən artıq kiçikdirsə və orada zəruri olan ventilyasiya sistemi quraşdırılmayıbsa, böyük ölçüdə qaz pilətəsi qoymaq olmaz.

Eyni qayda hamam otağına da aiddir. Kiçik hamam otağına böyük ölçülü suqızdırıcının qoyulması təhlükəlidir. Cihazın borusunun çıxış yeri olmalıdır. Zəruri ventilyasiya sistemi yoxdursa, mütləq hamam otağının qapısının aşağı hissəsində hava oynaması üçün dəliklər açılmalı və ya qapalı mühitdə qaz yandırılarkən nəfəsliklər açıq olmalıdır.

Otaqlarda quraşdırılmış qızdırıcı sobanın fəaliyyətinə vaxtaşırı fasilə verilməlidir. Bu zaman otaqda havanın dəyişdirilməsi üçün pəncərələr açılmalıdır. Unutmayın ki, mənzil mütəmadi havalandırılıqda dəm qazından zəhərlənmə riski azalır.

Evə soba alarkən onun zəmanət barədə sertifikatı və texniki pasportunun olub-olmamasına diqqət yetirin.

Mənzildə soba və suqızdırıcıların quraşdırarkən mütləq yerli qaz idarəsinin mütəxxəsisləri ilə məsləhətləşin. Bu sahədə naşı olan insanların xidmətindən istifadə etməyin. Tüstü borusu olmayan sobaları almayın. Boru olmadıqda və otaq mütəmadi havalandırılmadıqda orada mütləq dəm qazı yaranır.

Dəm qazı ilə zəhərlənən insan əksər hallarda özü-özünə kömək edə bilmir. Lakin təcili tibb yardım gələnədək ətrafdakılar ona ilk yardımı göstərə bilərlər. Zərərçəkəni dərhal təmiz havaya çıxartmaq, onu kürəyi üstə uzatmaq və yaxalığını açmaq lazımdır. İmkan olduqda oksigen yastıqlarından istifadə edilir.

Alın və sinəyə soyuq kompres qoyun. Əgər zərərçəkmişin huşu özündədirsə, o zaman ona isti çay verin. Dəm qazından yüngül zəhərlənmə olduqda, yeni zərərçəkmiş bu simptomları vaxtında hiss edib məkanı tərk etdikdə, o zaman sadəcə təmiz hava ilə tənəffüs etmək yetərlidir. Zərərçəkmiş huşunu itiribsə, ona naşatır spirti ilə isladılmış pambıq parçasını iyləmək lazımdır. Naşatır spirti olmadıqda onu adi sirkəylə də əvəz etmək olar. Zərərçəkmiş nəfəs almırsa və ya tənəffüsü zəifdirsə, ona süni nəfəs vermək lazımdır. Zəruət olduqda ürək masajı edilməlidir. Zərərçəkmişə yardım göstərilməsi üçün təcili tibb yardım briqadası çağırılmalıdır. Dəm qazından zəhərlənmiş insan özünü yaxşı hiss etsə belə, ən azı 24 saat həkim nəzarəti altında qalmalıdır.

Azərbaycan Respublikası Fövqəladə hallar Nazirliyi Muğan Regional Mərkəzi gələcəkdə bu sahədə baş verə biləcək bədbəxt hadisələrin qarşısını almıq üçün vətəndaşları diqqətli olmağa, səhlənkarlığa yol verməməyə, mütəxəssislərin məsləhətlərinə riayət etməyə, qaz cihazlarından və qızdırıcılardan istifadə zamanı təhlükəsizlik, texniki norma və qaydalara əməl etməyə çağırır. Hər hansı bir fövqəladə hadisə baş verdikdə «112» qaynar xəttinə müraciət edin!

Unutmaq olmaz ki, yalnız təhlükəsizlik qaydalarına əməl etməklə dəm qazı ilə zəhərlənmə hallarının qarşısını almaq mümkündür.

**Muğan regional Dövlət Yanğın Nəzarəti İdarəsi**

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650